Noyabr 2016

# PwC Azerbaijan Times

## 32 saylı Buraxılış




### Buraxılışın əsas xəbərləri:

- **Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişiklik edilmişdir**

Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

## *Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə dəyişiklik edilmişdir*

İqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəməyə yazılı formada və ya “Elektron məhkəmə” informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş elektron sənəd formasında verilə bilər. İqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslər “Elektron məhkəmə” informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bildirişləri bu şəxslərin həmin sistemdə yaradılmış elektron kabinetlərində yerləşdirilir və onlara bu barədə məlumat elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) çatdırılır. İqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.

Məlumat üçün bildirək ki, 1 iyul 2016-cı il tarixindən etibarən PwC Azərbaycan şirkəti hüquq məsələləri üzrə Menecer Elşən Rəhmanın başçılığı altında mübahisələrin məhkəmə qaydasında həll olunması üzrə təcrübənin tədbiqinə başlamışdır. Elşən Rəhmanın başlıca məqsədlərindən biri Azərbaycanda məhkəmə təcrübəsi və arbirtrajın inkişafına töhfəsini verməkdən ibarətdir. Elşənin təcrübəsi əsasən məhkəmə, məhkəməyə qədər mübahisələrin həlli, yerli və xarici müştərilərin kommersiya, anti-inhisar, korporativ, vergi, əmək, daşınmaz əmlak, aviasiya və vərəsəlik məsələləri üzrə məhkəmə proseslərində təmsili, xarici ölkələrin arbitrajları tərəfindən qəbul edilmiş qərarların icrası və tranzaksiyaların məhkəmə icraatı nöqteyi-nəzərindən qiymətləndirilməsindən ibarətdir.